
اللهم
ياحسين

# İMAM HÜSEYNİN (Ə) RƏHBƏRLİYİ İLƏ...

## Həzrət Ayətullah-üzma Seyyid Əli Xamenei cənablarının çıxışlarında Ərbəin ziyarətinin müxtəlif yönlərinə baxış

**Tərcümə edən: Şeyx Tohid İbrahimbəyli**

**Bismillahir-rəhmanir-rəhim**

# Şiənin ruhu, Kərbəla və Aşura ruhudur

İslam İnqilabının rəhbəri Həzrət Ayətullah-üzma Seyyid Əli Xamenei cənabları öz çıxışlarında Ərbəin hadisəsinin müxtəlif yönləri, o cümlədən Ərbəin ziyarətinin tarixi, mənəvi yönləri, müasir İslam sivilizasiyası yolunda Ərbəinin rolu və s. mövzular barəsində söhbət etmiş və bu çıxışlarında qeyd olunan mövzuları müxtəlif prizmalardan təhlil etmişdir. Bu kitabda Həzrət Ayətullah-üzma Seyyid Əli Xamenei cənablarının Ərbəin ziyarəti barəsində etdiyi çıxışlar toplanılmışdır.

# Ərbəin Ziyarətinin Tarixi

## Həzrət Zeynəbin (ə) Kərbəlaya gəlməsi ilə Aşura hadisəsinin diri saxlanılması

Zalım hakimlər İmam Hüseynin (ə) Aşura hadisəsinin yaşamasını istəmirdilər. Ancaq, Zeynəbi-Kübra (s.ə) onların bu istəklərini ürəklərində qoydu. Həzrət Zeynəbi-Kübra (s.ə) bu yolda iki hərəkət həyata keçirdi. Birinci hərəkət Kərbəladan Küfəyə, oradan isə Şama olan əsirliyi, habelə bütün bu məkanlarda həqiqətləri aşkara çıxaran çıxışları idi. İkinci hərəkət isə, Kərbəlanı Ərbəin günündə ziyarət etmək idi! İstər bu ziyarət birinci Ərbəində baş vermiş olsun, istərsə də ikinci! Həzrət Zeynəbin bu hərəkətinin mənası budur ki, Kərbəla kimi olduqca mühüm və təsirli hadisəni insanların yadından çıxarmağa çalışan xəbis planların heç bir zaman müvəffəq olmasına icazə vermək olmaz. Əlbəttə ki, müvəffəq də ola bilmədilər.

## Kərbəladan sonra ilk mübarizə qığılcımları

Ərbəin ziyarəti, Kərbəla hadisəsində bir başlanğıc idi. Boğucu mühitin xüsusiyyətlərindən biri də budur ki, belə bir mühitdə insanlar üçün dərk etdikləri həqiqətlərə əməl etməyə fürsət olmur və insanlar

buna cürət etməkdən çəkinirlər. Bir çoxları Həzrət Zeynəbin (s.ə) və ya İmam Səccadın (ə), habelə digər əsirlərin yaşadıqlarını görməklə müəyyən həqiqətləri dərk edirdilər, ancaq həmin insanlardan hansının zalım hakimiyyətin zülmü müqabilində dayanmağa və dərk etdiyi həqiqətləri bəyan etməyə cürəti var idi? Həqiqətlər bir qəhər kimi boğazda düyünlənib qalmışdı. Ancaq, bu qəhərlər Ərbəin günündə ilk dəfə olaraq üzə çıxdı və beləcə, Kərbəlada Ərəbin günündə ilk mübarizə qığılcımları meydana gəldi.

## Təbliğat dalğası müqabilində şəhadət məfhumunu qoruyub saxlamaq

Ərbəin ziyarətinin əhəmiyyəti bundadır ki, bu gündə Allahın tədbiri ilə Peyğəmbər (s) ailəsi və İmam Hüseynin qiyamı əbədiyyətə qədər yaşadı və Ərbəin ziyarəti bu işin təməlini qoydu. Əgər şəhidlərin həyatda olan yaxınları və onların həqiqi sahibləri müxtəlif hadisələrdə və ya mərasimlərdə şəhidlik məqamını yad etməsələr, sonrakı nəsillər şəhadət məqamının əzəmətindən o qədər də istifadə edə bilməyəcəklər. Necə ki, Hüseyn İbn Əli (ə) və onun tərəfdarları müqavimət bayrağının həqiqi sahibləri olaraq müxtəlif çətin maneələrlə qarşılaşdılar. Habelə, Həzrət Zeynəbin (s.ə), İmam Səccadın (ə) və digər əzəmətli şəxslərin mübarizəsi də olduqca çətin idi.

Ərbəin ziyarətinin bizə verdiyi dərs budur ki, biz həqiqətləri və şəhadət məktəbini üzərimizə dolu kimi yağan əks-təbliğatlar müqabilində diri saxlamalıyıq.

## Aşuranın qüdrətli carçısı

Ərbəin ziyarətinin birinci əhəmiyyəti bundan ibarətdir ki, bu ziyarət, Aşuranın carçısıdır. Aşura günündən Ərbəin gününə qədər olan 40 gün Bəni-Üməyyə və Süfyanilərin zalım hakimiyyətlərinin hökm sürdüyü dünyada haqq məntiqinin hökmranlıq etdiyi günlərdir; Həqiqi carçı Zeynəbi-Kübranın (s.ə) fəryadıdır, İmam Səccadın (ə) fəryadıdır! Harada? Küfədə, Şamda, bir sözlə zülmün hökm sürdüyü hər yerdə! Aşuranı diri saxlayan da bu fəryadlar idi, Aşuranı bugünə qədər gətirib-çıxaran bu fəryadlar idi. Ərbəin gününün tarixi də budur. O gün Əhli-Beyt (ə) 40 günlük hərəkəti ilə böyük bir tufan yaratdı. O gün boğucu bir mühitə baxmayaraq böyük bir tufan meydana gəldi.

## İmam Hüseyn (ə) cazibəsinin başlanğıcı

İmam Hüseynin maqnit kimi özünə cəzb edən cazibəsinin başlandığı gün Ərbəin günüdür. Bu cazibə Cabir İbn Abdullahı Mədinə şəhərindən Kərbəlaya çəkdi. Bu həmin cazibədir ki, bu gün də əsrlər

keçməsinə baxmayaraq, mənim və sizin qəlbinizdədir. Əhli-Beytə (ə) mərifəti olan hər kəsin qəlbi həmişə Kərbəla eşqi ilə döyünür. Bütün bunlar isə, həmin gündən (Ərbəin günündən) başlamışdır.

## Cabir İbn Abdullah Ənsarinin Ərbəin günündə Kərbəlanı ziyarət etməsi

Ərbəin günündə, o acı günlərdən və qəmli şəhadətdən sonra İmam Hüseynin (ə) ilk zəvvarları o məsum İmamın (ə) qəbri başında toplaşdılar. O gün Kərbəlanı ziyarət edənlərdən biri Cabir İbn Abdullah Ənsari, digəri isə İmam Əlinin (ə) səhabələrindən olan Ətiyə ibn Səd Ofi idi. Ətiyə deyir: "Kərbəlaya çatanda İmam Hüseynin qəbrinə tərəf getmək istədim, ancaq, bu qoca (Cabir İbn Abdullah Ənsari) dedi ki, ilk öncə Fərat çayına gedək və qusl alaq! O, Fərat çayında qusl aldıqdan sonra bir parçanı belinə bağladı, başqa bir parçanı isə çiyninə atdı. Allah evini təvaf etmək istəyən birisi kimi İmam Hüseynin (ə) qəbri tərəfə getdi." Cabir İbn Abdullah Ənsari kor idi. Ətiyə belə davam edir: "Biz birlikdə getdik və İmam Hüseynin (ə) qəbri yaxınlığına yetişdik. O, qəbrə toxunanda, onun kimə aid olduğunu anladı. Duyğuları cuşa gəldi. İmam Hüseyni (ə) dəfələrlə peyğəmbərin (s) qucağında görən bu qoca, uca səslə belə fəryad etdi: "Ya Hüseyn, Ya Hüseyn, Ya Hüseyn!"

## Şiələrin müqəddəs torpaqlarda görüş yeri

Aşura hadisəsini, o əzəmətli cihadı və canlarını fəda etmiş qəhrəmanları o müqəddəs torpaqlarda yad etmək Ərbəin günündə baş verir. Əgər şiələr bu gün o müqəddəs və pak torpaqları görüş yeri olaraq qərar versələr, bu, həm olduqca yerində bir qərardır, həm də, İmamların (ə) bizlərə təqdim etdiyi yolu təqib etməkdir.

## Ərbəindən sonrakı qiyamlar

## Kərbəla ziyarətindən sonra Təvvabin qiyamının formalaşması

İmam Hüseynin (ə) qiyamından sonra şiələrin meydana gətirdiyi ilk qiyam Təvvabin qiyamıdır. Onlar Kərbəlaya gələrək, İmamın pak qəbri ətrafında bir araya toplaşdılar. Durmadan göz yaşı tökdülər. Bir və ya iki gecə-gündüz durmadan ağladılar. Bu ağlayışlardan sonra əl-ələ verib Allah yolunda canlarını fəda etmək və ölənə qədər döyüşməkdən əl götürməmək qərarına gəldilər. Elə də oldu. İmam Əlinin (ə) və İmam Həsənin (ə) səhabəsi olan Süleyman İbn Sərd Xuzai və onun kimi böyük

şəxsiyyətlər qiyam edərək canlarını fəda etdilər. Görün bu həqiqət o zamanlar necə də gözəl idi. Baxmayaraq ki, bugün bəzi insanların zehnində artıq o həqiqətin gözəlliyi və əzəməti qalmamışdır. Sanki bu həqiqət başqa şəkildə özünü göstərməkdədir. Buna görə də, Ərbəin məsələsi olduqca mühüm bir məsələdir.

## Ərbəindən sonra Muxtarın qiyamının başlanması

Təvvabin hərəkatı da buradan (Ərbəin ziyarətindən) başladı. Təvvabin hərəkatı yatırılsa da, qısa zaman sonra Küfədə Muxtarın və digər qəhrəman şəxsiyyətlərin qiyamı baş verdi və bu qiyamın nəticəsində zalım və xəbis Bəni-Üməyyənin sonu gəldi. Bəni-Üməyyədən sonra, mərvanilər sülaləsi hakimiyyətə gəlsə də, bu mübarizə yenə də davam etdi. Bu, Ərbəinin xüsusiyyətidir. Yəni, Ərbəinin xüsusiyyətlərində ifşa etmək də var, əməl etmək də! İfşa etmək özü nəticə verdi və buna ən gözəl nümunə isə Ərbəin hadisəsidir.

## Kərbəlada əhd bağlamaqla başlayan İbn Təbatəba qiyamı

Bəni Abbas xəlifələri dövründə baş verən ən böyük şiə qiyamlarından biri də, İbn Təbatəba qiyamıdır. İbn Təbatəba olduqca əzəmətli bir qiyam edərək, fəthlər etdi və qələbə çaldı. İslam dünyasının mühüm hissəsini ələ keçirdi. Şiə və Ələvi hökümətini qurdu. Ancaq, bu böyük şəxsiyyət xəstəliyə mübtəla oldu və dünyadan köçdü. Ondan sonra isə, əldə olunan müvəffəqiyyətlər və uğurlardan əsər-əlamət qalmadı. Bir neçə ildən sonra, qiyam məğlubiyyətə düçar oldu. Buna baxmayaraq, onlar bir neçə il hakimiyyətdə qalmağı bacardılar. Bu böyük şəxsiyyət də qiyama başlamaq istəyərkən ilk öncə Kərbəlaya səfər edir. Əbu Səraya və digər şiələrlə birlikdə Kərbəlaya gələrək İmam Hüseynin (ə) qəbri üzərində əhd bağladılar və bu əhdə əməl edəcəklərinə dair bir-birilərinə söz verdilər.

## Dünya şiələrinin Ərbəin günündə və Kərbəla torpağında bir araya gəlməsi

İmanın əlamətlərindən birinin Ərbəin ziyarəti olduğunu bilirsiniz? Şiələr dağınıq halda yaşayan toplum idi. Ancaq, bir sap onları bir təsbehin muncuqları kimi bir araya topladı. Bəs o sap nə idi? O sap şiəlik mərkəzinə, şiəliyin ali rəhbərliyi olan İmama itaət etməkdir. Ola bilsin ki, iki nəfər hətta bir-birini tanımamış olsun. Halbuki, elə insanlar olub ki, bir-

birlərini tanısalar da, işlərində bir eyb və nöqsan var idi və o da bu idi ki, onlar bir-birlərini çox az görürdülər. Doğrudur ki, bir şəhərin, bir məntəqənin şiələri bir-birilərini görürdülər, ancaq İmamların zamanında yaşayan şiələr üçün bir beynəlxalq konqres lazım idi və bu konqres təyin olundu. Vaxtı da təyin olundu. Dedilər ki, bu müəyən olunmuş gündə bu konqresdə hər kəs iştirak edə bilər. Bu təyin olunmuş gün isə Ərbəin günüdür. Məkanı isə, Kərbəla torpağıdır. Çünki, şiənin ruhu Kərbəla və Aşura ruhudur

## Ərbəin ziyarətində İmam Hüseyn (ə) qiyamının xülasəsi

Ərbəin ziyarəti duasında bir cümlə vardır ki, o cümlə digər ziyarətnamələr və dualar kimi olduqca dərin mənaya sahibdir.  O cümlə budur:

و بذل مهجته فيک ليستنقذ عبادک من الجهالة و حيرة الضّلالة

**İmam Hüseyn canını Sənin yolunda fəda etdi ki, onlara cəhalət girdabından və azğınlıq heyrətindən (sərgərdanlığından) nicat versin.**

Bu, məsələnin bir tərəfidir, yəni qiyam edən tərəfi! Bu, İmam Hüseyndir (ə). Məsələnin digər tərəfi isə, sonrakı cümlədə belə bəyan olunur:

و قد توازر عليه من غرّته الدنيا و باع حظّه بالارذل الأدنى

**Qarşı tərəfdə o kəslərdir ki, dünya həyatına aldanmış, dünya öz həzzi və ləzzətini onlara ən alçaq şeylərin müqabilində satmışdır.**

Yəni, onlar Alahın hər bir insan üçün onun yaradılışında qərar verdiyi dəyəri ən alçaq və lüzumsuz şeylərə satmışlar. Bu, İmam Hüseynin (ə) qiyamının xülasəsidir.

## Əzəmətli Ərbəin yürüşü

### 1.Əhəmiyyət

### Ərbəin yürüşü, İslamın qüdrəti

İslam dünyasının günümüzdə müşahidə etdiyi qüdrətlərindən biri də, Ərbəin yürüşüdür.

**وَأَعِدُّوا لَهُمْ مَا اسْتَطَعْتُمْ مِنْ قُوَّةٍ**

**Bacardığınız qədər qüvvə toplayın…**

Ərbəin yürüşü İslamın qüvvəsidir. Bu qüvvə İslami müqavimət cəbhəsinin qüvvəsidir ki, insanlar belə böyük bir milyonluq cəmiyyətlə Kərbəlaya doğru, İmam Hüseynə doğru, habelə bütün azad insanların

dərs alacağı fədakarlıq  və şəhadət qalasına doğru yola düşürlər.

## Böyük İlahi hədiyyə

Allah-Təala adi şəhidlər üçün verdiyi savabları belə bəyan edir:

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

فَرِحِينَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ وَيَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُوا بِهِمْ مِنْ خَلْفِهِمْ أَلَّا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

**Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur.**

Allah-Təala adi bir şəhid barəsində belə danışırsa, gör şəhadəti heç bir şəhadətlə müqayisə olunmayacaq İmam Hüseyn (ə) kimi bir şəhidin əcri nədir?!... Bu savab adi bir şəhidin savabı ilə əsla müqayisə olunmazdır. Bucür şəhidlərin savablarından biri də budur:

اِجابَة الدُّعاءِعِندَ قبره

**(İmam Hüseynin) qəbri kənarında dua müstəcab olar.**

Həqiqətən dua edin! Sadəcə dilinizi tərpətməyin! Allahı çağırın və Allahdan istəyin! Çünki Allah-Təala dualarınızı müstəcab edəcəyinə vədə vermişdir. Piyada yola düşən və özünü Ərbəin yürüşünə çatdıranlar üçün bu yürüş həqiqətən də Allahın onlara verdiyi böyük hədiyyədir.

## İnsanın ömründən hesablanmayan günlər

İmam Hüseynin (ə) şəhadətində qərar verilən savablardan biri də budur:

**وَ لا تُعَدُّ اَيّامُ زائِريهِ جائِيا وَ راجِعا مِنْ عُمْرِهِ**

**Zəvvarları ziyarət etdikləri zaman onların ömürlərindən hesab olmaz.**

Fərz edək ki, Allah təala sizə on min gün ömür vermişdir. Sizin İmam Hüseynin (ə) qəbrini ziyarət edərkən keçirdiyiniz günlər bu ömürdən hesablanmayacaqdır. Yəni, bu günlər Allah təalanın sizlər üçün təyin etdiyi ömürdən əlavədir. Yəni, ömrünüzdən sayılmayacaq.

## İmanın və eşqin hərəkəti

Bu son illərdə görünməmiş hadisələr cərəyan etməkdədir və o, Kərbəla ilə Nəcəf və ya daha uzaq şəhərlərdən Kərbəlaya doğru yürüşdür. Bəziləri

Bəsrədən, bəziləri sərhədyanı məntəqələrdən, bəziləri də, digər şəhərlərdən hərəkət edirlər. Bu hərəkət, iman və eşqin hərəkətidir. Biz isə, uzaqdan bu hərəkətə tamaşa edərək, belə bir hərəkətdə addım atmağa nail olanların halına qibtə edirik.

*Səndən uzaq olsaq da, səni yad etməkdəyik...*

*Uzaq olmayaydı mənzil, bu nurani səfərdə...*

## İmam Hüseyn (ə) mərifətinin geniş vüsət alması

Nəinki bizim zamanımızda, hətta tarixin heç bir səhifəsində belə bir kütləvi izdiham müşahidə edilməmişdir. Tarixdə görülməmişdir ki, böyük bir insan izdihamı hər il eyni hədəfə doğru hərəkət etsin və bu yürüş hər il öncəki ildən daha da əzəmətli olsun! Bu, görünməmiş bir hadisədir. Ərbəin yürüşünün İmam Hüseyn (ə) mərifətinin daha geniş vüsət almasında böyük rolu vardır. Nəcəf və Kərbəla arasında baş tutan bu yürüş, artıq ümumdünya bir hərəkata çevrilmişdir. Hər il dünyanın gözü bu hərəkata dikilir. İmam Hüseyn (ə) və o Həzrətə (ə) mərifət, bu əzəmətli hərəkatın bərəkətindəndir ki, artıq qlobal səviyyəli və bütün dünyanı özünə cəlb edən bir hərəkat adını almışdır.

## İmam Hüseynin (ə) mesajının bütün dünyaya yayılması

Bizim bugün Hüseyn İbn Əlini (ə) dünyaya tanıtmağa ehtiyacımız vardır. Bugün yüzlərlə vasitə ilə İslama və İslam təfəkkürünə qarşı təbliğat aparılır. Küfr və zalım cəbhənin belə düşməncəsinə hərəkəti qarşısında, İmam Hüseynin (ə) mərifətini qalxan qərar verməklə Quran və İslam həqiqətini dünyaya bəyan etmək olar. Hüseyn İbn Əlinin (ə) məntiqi haqqı müdafiə etmək, zülm, azğınlıq və istismarçılıqla mübarizə aparmaq məntiqidir. Bu, İmam Hüseynin (ə) məntiqidir. Bugün dünyanın belə bir məntiqə ehtiyacı vardır. Bugün dünya zülm, fəsad və istismarçılıq hakimiyyətinə şahid olmaqdadır. Dünya zülm hakimiyyətinə şahid olur. İmam Hüseynin (ə) bu mesajı dünyaya nicat verəcək bir mesajdır. Ərbəin yürüşü isə, bu mesajı bütün dünyaya yayır və Allahın lütfü, inayəti ilə bu hərəkat günbəgün daha da güclənməlidir.

## Əvəzolunmaz media

Bugün bəşəriyyətə hakim olan qəliz və qarışıq təbliğat sistemi müqabilində Ərbəin hərəkatı əvəzolunmaz bir media və fəryad səsidir. Dünyada belə bir şeyin misli yoxdur ki, milyonlarla insan eyni

hədəf üçün yola düşsün! Nəinki bir şəhərdən və ya bir ölkədən, hətta müxtəlif ölkələrdən və nəinki sadəcə İslamın bir məzhəbindən, hətta müxtəlif məzhəblərdən və bəzən də digər dinlərdən olan insanlar bu yürüşdə iştirak edirlər. Bu, İmam Hüseynin (ə) yaratdığı vəhdətdir.

## Əhli-Beyt (ə) sevərlərin rəmzi

Xoş olsun o şəxslərin halına ki, ərbəin yürüşündə iştirak edir, ya edəcək və yürüşün sonunda inşallah Ərbəin ziyarətnaməsini Həzrətə (ə) xitab edərək zümzümə edəcəkdir. Biz də buradan həsrət və şövqlə onların addımlarına tamaş edəcəyik.

Həmd olsun Allaha ki, bizim cavanlarımız, milyonlarla bizim xalqdan və digər xalqlardan olan insanlar bu yolda hərəkət edirlər. Bu, Allahın bizə minnət qoyduğu və bizim üçün yaratdığı əzəmətli hadisələrdən biridir. Bu, artıq bir rəmzə çevrilmişdir. Doğrudur, Ərbəin yürüşü həmişə var idi. Ancaq, bu gün bu əzəmətli hərəkat Əhli-Beyt (ə) sevərlər üçün gözəl və əvəzolunmaz bir rəmzə çevrilmişdir. Əgər Ərbəin olmasaydı, biz buna sahib ola bilməzdik. Allah-Təala bunu bizim ixtiyarımıda qərar vermişdir və buna görə Allaha sonsuz şükür etmək lazımdır.

## Allahın şüarlarından biri

Bu yürüşdə iştirak edən, aşiqcəsinə və ixlasla addım atan şəxslər həqiqətən də böyük bir savab əməl edirlər. Çünki bu yürüş böyük bir şüardır.

**يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُحِلُّوا شَعَائِرَ اللَّهِ**

**Ey iman gətirənlər! Allahın (müəyyən etdiyi dini) şüarlarına, ... hörmətsizlik etməyin!**

Şübhəsiz, bu hərəkat Allahın şüarlarından biridir. Yeri var ki, mənim kimi bu əzəmətli hərəkatdan məhrum olanlar belə deyək:

**يَا لَيْتَنِي كُنْتُ مَعَكُمْ فَنفُوزَ فَوْزًا عَظِيمًا**

**Ey kaş, biz də sizinlə birlikdə olardıq və əzəmətli feyzə nail yetişərdik.**

Bu, imanın və eşqin hərəkətidir. Çünki, bu hərəkətdə həm təhrikecidi və əmələ sövq edən iman və sarsılmaz qəlbi etiqad vardır, həm də eşq və məhəbbət vardır. Əhli-Beytin (ə) və şiənin təfəkkürü belədir. Ağıl və qəlbin qarışığı! İman və eşqin qarışığı!

## Allahın qüdrət əli

Adətən heç bir təbliğat aparılmadan, bir anın içərisində formalaşan bucür hadisələrdə Allahın əli daha çox hiss olunur. Təsəvvür edin ki, on min, əlli min insanı bir yerdə toplamaq üçün nə qədər təbliğat

aparırlar. Sonda da, buna nail ola bilmirlər. Halbuki, burada müxtəlif maneələrə baxmayaraq, yalnız İrandan 2 milyon insan 80 kilometr yolu piyada getmək üçün yola çıxır. Bunu ləzzət üçün, bahalı oteldə qalmaq üçün etmirlər. Bundan da çoxu İraqın özündən və digər ölkələrdən gəlirlər. Bu ilahi bir hadisədir. Bu onu göstərir ki, bu yol, eşq yoludur. Ancaq, bu eşq dəliliyi özündə ehtiva edən bir eşq deyildir, əksinə bəsirətin hakim olduğu bir eşqdir. Allah övliyalarının eşqi kimi:

**اللهم ارزقنی حبک و حب من یحبک و حب کل عمل یوصل الیک قربک**

**İlahi, öz məhəbbətini, Səni sevənlərin məhəbbətini və Sənə yaxınlaşdıracaq əməllərə olan məhəbbəti mənə ruzi qərar ver.**

Bu məhəbbət və bu eşq, bəsirətlə bürünmüş bir eşqdir. İnsanı oraya çəkən bu cazibədir. Bu cazibə, insanı bir maqnit kimi oraya çəkir.

## Milyonluq yürüş-mübarizə təfəkkürünün öz zirvəsinə çatdığının göstəricisi

Ərbəin yürüşü həqiqətən də böyük bir hadisədir. İlahi və mənəvi bir hadisədir. Həqiqətən də, vəsf olunmayacaq bir hadisədir. Bu hadisə də, digər mühüm İlahi hadisələr kimi, şərh olunmazdır. Yəni, bu

hadisəni təhlil etmək mümkün deyildir. Mümkün deyil ki, bir neçə il ərzində formalaşmış belə bir milyonluq insan izdihamını təhlil edəsən! Bəli, keçmişdə də Ərbəin yürüşü var idi, ancaq o yürüşlər belə bir əzəmətə malik deyildi. Bilirik ki, müxtəlif zamanlarda, istər Ərbəin günüdə olsun, istərsə də digər günlərdə, tələbələr Nəcəf şəhərindən və İraqın müxtəlif məntəqələrindən Kərbəlaya doğru hərəkət edirdilər. Sayları da az deyildi. Ancaq, bugün müşahidə etdiyimiz milyonluq izdiham dünyanın müxtəlif yerlərindən gələrək bütün terror təhlükələrinə baxmayaraq yenə də bu əzəmətli yürüşdə iştirak edirlər. Bu, fövqəladə əzəmətli bir hadisədir. Bu, Allah və İslam yolunda mübarizə təfəkkürünün zirvəyə çatdığının və hamının bu yola hazır olduğunun göstəricisidir. Ümidvaram ki, Allah-Təala bu hərəkətə və bu insanlara öz bərəkətini nazil edər.

## İslam dünyasının ehtiyacının ödənilməsi

Ərbəin hadisəsi elə fövqəladə bir hadisədir ki, Allah-Təala onu İslam dünyasına belə bir hadisəyə ən çox ehtiyacı olduğu bir zamanda əta etdi.

## İslam ümmətinin izzət qazanmasına bir nümunə

Ərbəin yürüşü qəribə bir hadisədir. İslam və Əhli-Beyt (ə) düşmənləri bu yolu bağladıqlarını düşünürdülər. Ancaq, gördüyünüz kimi, hər şeyə rəğmən necə böyük bir hadisə baş verdi. İnsanlar bir-birinin kənarında qərar tapanda belə böyük hadisə formalaşır. Əgər biz birlikdə olsaq, yəni İslam ölkələri, müsəlman millətlər, sünni və şiələr, bir sözlə hamılıqla qəlblərimizi bir-birinə bağlasaq, bir-birimizə qarşı sui-zənn etməsək, bir-birimizə qarşı pis niyətli olmasaq, bir-birimizə xəyanət etməsək, dünyada nə hadisələr baş verər və İslam necə bir izzətə sahib olar. Vəhdət! Vəhdət!

## Milyonluq Ərbəin yürüşü-Hərəm Müdafiəçiləri şəhidlərinin fədakarlıq meydanı

Ölkə xaricində şəhid olan Hərəm Müdafiəçiləri şəhidlərinin hərəkəti, həqiqətdə o şəxslərin hərəkətinə bənzəyir ki, öz canları ilə Həzrət Əba Əbdillahın (ə) qəbrini qorudular. Bir zaman var idi ki, Bəni-Abbas xəlifələri İmam Hüseynin (ə) pak qəbrini və onunla birlikdə digər pak qəbirləri yerlə yeksan etmək istəyirdilər. Bəziləri isə öz canları bahasına buna icazə vermədilər. Onlara dedilər ki, əgər ziyarətə gəlsəniz əllərinizi, ayaqlarınızı kəsəcəyik və sizi öldürəcəyik. Ancaq, onlar bütün bu təhdidlərə baxmayaraq yenə də getdilər. Onların getməklərinin

səbəbinə görədir ki, bu gün Ərbəin yürüşü 20 milyona çatmışdır. Əgər o zaman kimsə fədakarlıq etməsəydi, bugün İmam Hüseynin (ə) sevgisi dünyanın hər yerini bürüməzdi. Necə ki, görürsünüz, bu gün Ərbəin yürüşündə müxtəlif ölkələrdən, müxtəlif millətlərdən fars, türk, Avropa millətləri, hətta Amerikadan insanlar iştirak edirlər. Bunu kim etdi? Bu işin təməlini İmam Hüseynin (ə) qəbrinin ziyarəti üçün canlarını fəda edən insanlar qoydu.

## Ərbəin daha da qlobal xarakter alacaq

Ərbəin yürüşü qlobal xarakter aldı və daha da qloballaşacaqdır. Bu, İmam Hüseynin (ə) qanıdır ki, 14 əsr keçməsinə baxmayaraq yenə də qaynamaqda və günü gündən yenilənməkdədir. Bu, Əba Əbdillah Hüseynin (ə) və Həzrət Zeynəbin (s.ə) tənha və qərib ikən boğazından çıxan və bugün bütün dünyaya yayılan Aşura mesajıdır. İmam Hüseyn (ə) insanlığa aiddir. Biz şiələr, İmam Hüseynin (ə) ardıcılları olduğumuza görə iftixar edirik. Ancaq, İmam Hüseyn (ə) yalnız bizə aid deyil. Sünni və Şiəsindən asılı olmayaraq bütün İslam məzhəbləri İmam Hüseyn (ə) bayrağı altında qərar tapmışdır. Bu əzəmətli yürüşdə hətta İslamı qəbul etməyən insanlar da iştirak edirlər və bu, beləcə də davam edəcəkdir, İnşallah! Bu, Allahın bütün dünyaya göstərdiyi əzəmətli nişanəsidir.

Bir zamanlar İslam və İslam ümməti düşmənləri müxtəlif vasitələrlə, pul və ya siyasətlə, silahla İslam ümməti əleyhinə fəaliyyət göstərirdi. Bu fəaliyyətlərin müqabilində Allah-Təala birdən-birə Ərbəin yürüşü hadisəsini bizlərə bəxş etdi. Buna görə də, Ərbəin yürüşü Allahın əzəmətli nişanəsidir. Bu nişanə isə, Allahın İslam ümmətinə yardımı oldu. Bu onu göstərir ki, Allah-Təalanın iradəsi İslam ümmətinin yardımına yönəlmişdir.

## 2.Mediada əks-səda doğurması

### Dünyanın ən izdihamlı yürüşü

Əgər müsəlman millətlərin hamısı bir-biriylə vəhdət halında olsaydı, hazırda İslam dünyası fövqəladə bir tərəqqiyə yetişmiş olardı. Hər hansı bir yerdə, hətta sadəcə cismlərin bir-birinə yaxın olduğu belə bir izdihamı müşahidə etmişiksə, bu izdiham İslamın və müsəlmanların izzətini artırmışdır. Bildiyiniz kimi, Ərbəin günündə milyonlarla insan bir hədəf uğrunda bir yerə toplaşırlar. Müsəlmanların bir hissəsinin - bu, sadəcə şiələrə məxsus deyildir, sünnilər də qatılırlar - iştirak etdiyi bu əzəmətli hərəkatın özünü təqdirə layiq bilərək onu dünyanın ən böyük izdihamı kimi qəbul etdilər. Kimlər? Əlbətdə ki, İslam məsələlərini daima izləyənlər!

## Düşmənin sükut fitnəsi və düşməncəsinə analizi

Ərbəin hadisəsi təsəvvür olunmayacaq bir hadisədir. Yəni, dünyada tayı-bərabəri yoxdur. Qərb dünyası da bu hərəkatın nə olduğunu və necə baş tutduğunu dərk etməkdə acizdir. Buna görə də, onların təbliğat vasitələri ilk illərdə Ərbəin yürüşünü sükutla izlədi. Yəni, sükut fitnəsini seçdilər. Halbuki, onlar dünyanın istənilən yerində baş tutan az saylı yürüşlərə reaksiya verərək onu gözlər önünə sərirlər. Neçə il onlar Ərbəin hərəkatının adını belə çəkmədilər, bir dəfə belə işarə etmədilər, bir şəkil belə yayımlamadılar. Ancaq, yenə də bu barədə fikir mübadiləsi aparmaqla düşməncəsinə təhlillər irəli sürdülər. Bu ingilis radiosu və onun kimi digər media qurumları bu əzəmətli hərəkata düşməncəsinə təhlillə yanaşdılar. Bu onu göstərir ki, bu feyz çeşməsinin qaynaması onları olduqca narahat etmişdir və buna görə də, aşkarda təhlil aparmaqdan çəkindilər.

## Ərbəin hərəkatının aşkar olması

İndi isə dünyada bütün gücləri ilə çalışırlar ki, bu nurlu çıraq (Ərbəin hadisəsi) gözə görünməsin. Ancaq, bacarmadılar. Bu nurun qarşısını ala bilmədilər. Nə qədər onu yox etməyə, təhrif etməyə

çalışsalar da, bir yerə çata bilmədilər. Elə ki hərəkata davam etdiniz, həqiqət istər-istəməz özünü aşkar edəcəkdir.

## İraq xalqının materislist dünyamızda nümayiş etdirdiyi eşq dolu rəftar

Ərbəin yürüşü zəvvarlarını bu cür isti qarşılamaq və onlara xidmət göstərmək İraq xalqının üstün xüsusiyyətlərindən biridir. Bu mənəviyyat və eşq dolu rəftar günümüzün materialist dünyasında olduqca mühüm və təqdirəlayiqdir. Ancaq, hələ də İraq xalqının bu fəziləti dərin şəkildə tanınmamışdır.

## İraq alimləri tərəfindən yaradılan qardaşlıq mühiti

Səmimi qəlbdən öz tərəfimdən və İran xalqı adından həm Ərbəin günlərində rəhmət, kəramət və ədəbi ən ali dərəcəyə  çatdıran xeymə sahiblərinə və həm də bütün İraq xalqına və ziyarət zamanı əmniyyəti təşkil edən və iki millət arasında qardaşlıq mühitinin yaranmasında müstəsna rol oynayan məsul şəxslərə, xüsusən də dəyərli İraq alimləri və mərcei-təqlidlərinə təşəkkür edirəm.

## İraq xalqının dünyada görünməmiş kəramətli rəftarları

Siz əziz İraq xalqının Ərbəin yürüşü zamanı yol boyunca qurulan xeymələrdə etdiyiniz rəftarlar barəsində deyə bilərəm ki, günümüzdə bu kimi rəftarların tayı-bərabəri yoxdur. Sizin kəramətli rəftarlarınızın dünyanın heç bir yerində bənzəri yoxdur. Siz, İslam və ərəb kəramətini öz rəftar və əməllərinizdə bütün dünyaya göstərdiniz. Bütün bu rəftarların səbəbi isə, İmam Hüseynə (ə) olan eşqinizdir. Təsəvvür edin ki, zəvvarların ayaqlarını yuyurlar, bədənlərini masaj edirlər, onlara yemək verirlər, yatmaq üçün yer verirlər. Bütün bunları isə onlar İmam Hüseynin (ə) zəvvarları olduqları üçün edirlər. Hüseyn İbn Əliyə (ə) olan eşq istisna bir eşqdir ki, onun bənzəri heç bir yerdə yoxdur. Heç bir zaman da bənzəri olmamış və olmayacaqdır.

# 3.Tövsiyələr

## Ərbəində piyada getməyi qənimət bilin!

Bu əzəmətli hərəkatda müsəlman ölkələrindən, İrandan, Hindistandan, Avropadan və hətta Amerika və digər uzaq diyarlardan insanlar iştirak edirlər. 2 gün, 3 gün və ya bundan az, ya çox piyada Kərbəlaya doğru yol gedirlər. İraq xalqı isə, həqiqətən də çox

böyük hörmət və məhəbbətlə onlara xidmət göstərirlər. Bu hərəkat çox mənalı və əzəmətli bir hərəkatdır və bu yürüşdə iştirak edən hər bir kəs, onu qənimət bilsin!

## **İmamların (ə) ziyarətnamələrini oxuyun!**

İmamların(ə) mənəviyyat və eşq dolu ziyarətnamələri ali və üstün həqiqətləri bizlər üçün bəyan edir. Bəziləri bu ziyarətnamələrin sənədini araşdırırlar. Mən demək istəyirəm ki, sənədi olmasa belə, bu ziyarətnamələri oxumaq lazımdır. Əgər, biz İmamlarla (ə) söhbət etmək istəsək, necə bir şəkildə söhbət edək? Axı nə zaman öz zehnimizdə və qəlbimizdə belə fəsahətli, bəlağətli və əzəmətli cümələri tapa bilərik ki, bu cümlələrlə İmamlara (ə) müraciət edə bilək?! Bu ziyarətnamələr çox dəyərlidir. Əlbəttə, bu ziyarətnamələr insanların öz ürək sözlərini, qəlbindən keçənləri bəyan etməsinə heç bir maneə yaratmır. Eyniylə bir uşaq kimi ki, öz atası və ya əzizi ilə səmimi söhbət etmək və ya nədənsə şikayət etmək istəyir. Hər bir halda, bizim məktəbdə olan bu ziyarətnamələri həqiqətən də qənimət bilməliyik.

## Müsəlman qardaşlarınızla əlaqələrinizi daha da gücləndirin!

Ərbəin yürüşündə onlarla ölkədən insanlar iştirak edir və hamısı da İraq xalqının qonaqlarıdırlar. Buna görə də, bu əzəmətli yürüşdə qardaşlarımızla olan əlaqələrimizi daha da gücləndirməyə çalışmalıyıq. İraqlı və qeyri-iraqlı arasında əlaqə, şiə və sünni arasında əlaqə, ərəb və fars arasında əlaqə, türk və kürd arasında əlaqə! Bu əlaqələr səadət mayasıdır. Bu əlaqələr İlahi rəhmət nişanələridir. Düşmən daima aranı vurmaq və ayrılıq salmaq üçün səy göstərir, ancaq bu günə qədər öz istəyinə nail ola bilməmiş və bugündən sonra da, Allahın qüdrəti ilə bacarmayacaqdır. Biz (İran və İraq) bir-birinə bağlı olan iki millətik. Bizim bədənimiz, bizim qəlbimiz, canımız bir-birinə bağlıdır. Bu bağlılığı yaradan isə, Allaha iman və Əhli-Beytə (ə) olan sevgidir. İmam Hüseynə (ə) məhəbbətdir. Bu bağlılıq, İnşallah günü-gündən daha da çoxalacaqdır. Düşmən plan cızsa da, heç bir planı baş tutmayacaqdır.

## Ərbəin şövqünü və həyacanını qoruyun!

Milyonlarla insanın Nəcəf və Kərbəla arasında iştirak etdiyi yürüşü görürsünüz? Bu şövq və həyəcanı görürsünüz? Bir zaman bu yürüşdə təhlükə hiss

olunsa belə, yenə də bizim millətimizdə, cavanlarımızda bu yürüşə qarşı şövq və həyacan öz sözünü deməkdədir. Bu şövqü və həyacanı qorumaq lazımdır. Bu şövq və həyacan ölkəmizin davamlı qalmasının zəmanətidir.

## Ərbəin izdihamı daha da genişlənməli və dərinləşməlidir

İmam Hüseyn (ə) böyük bir yürüş və izdiham meydana gətirdi. Milyonlarla insanın qəlbi bu yolda addım atır və hədəfə doğru hərəkət edir. Hamı o mənəviyyat çeşməsinə və mədəninə doğru hərəkət edir və bu hərəkatı bütün dünyanın gözləri önünə çəkir. Bu hərəkat, inşallah günü-gündən daha da artacaq və genişlənəcəkdir və əlbəttə, daha da dərinləşəcəkdir. Hikmət və elm sahibləri bu barədə düşünməli və bu məsələ üzərində iş görməlidirlər.

## Ərbəin hadisəsindən müasir İslam sivilizasiyasının formalaşması üçün istifadə etməliyik

Ərbəin yürüşünü bacardığımız və bacardığınız qədər daha da mənəvi və təsirli edin! Biz bu mərasimin mənasını günü-gündən daha da dərin etməliyik. Fikir və düşüncə sahibləri bu əzəmətli

hərəkat üçün proqramlar cızmalıdırlar. Bugün hər bir müsəlmanın hədəfi müasir İslam sivilizasiyasını formalaşdırmaqdır. Biz bugün bunu istəyirik. Müsəlman millətlərin böyük qabiliyyəti vardır və əgər bu qabiliyyətdən istifadə olunsa, İslam ümməti ən üstün izzətə çatacaqdır. Biz bu barədə düşünməli və fikir irəli sürməliyik. Böyük İslam sivilizasiyasını formalaşdırmaq, bizim son hədəfimizdir.

## Ərbəin səfərinin mənəvi ruhunu qoruyun!

Bu cür hadisələrdə siz Allahın pərdə arxasından uzanan qüdrət əlini və bərəkətini hiss edə bilərsiniz. Buna görə şükür etmək lazımdır. Əgər şükür etsək əlimizdə qalacaqdır. Ancaq, şükür etməsək bizdən alınacaqdır. Ərbəin yürüşünə görə Allaha şükür etməliyik. Bunun şükründən biri də budur ki, Ərbəin yürüşü zamanı əldə etdiyiniz və müşahidə etiyiniz nurani ruhu əldən verməyin! O qardaşlığı, o mehribanlığı, vilayətə olan diqqəti, əziyyətlərə qatlaşmağa hazır olmağı, zəhmət çəkməyi seçməyi, rahatlıq və tənbəllikdən uzaq qalaraq tər tökməyi əldən verməyin! Həyatınızın bütün sahələrində bunlara əməl edin. Belə etsəniz, şükür etmiş olacaqsınız.